# Hadrutun azad edilməsi ordumuzun gücünü həm ermənilərə, həm də bütün dünyaya göstərdi

***"Həqiqətən də, zaman keçdikcə, ölkəmizin 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı möhtəşəm qələbənin tarixi əhəmiyyətinin nə qədər böyük olduğu daha aydın görünməkdə və dərk olunmaqdadır. Mütləq nəzərə almaq lazımdır ki, Azərbaycan İkinci Qarabağ savaşında əldə etdiyi zəfərlə sadəcə, uzun müddət Ermənistanın işğalı altında qalan ərazilərimizi düşməndən təmizləmədi, həm də yerləşdiyimiz coğrafiyada yeni reallıq yaratmağa nail oldu".***




Bu sözləri söhbətində "Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Aqil Ələsgər dedi və bildirdi ki, Azərbaycanın imza atdığı bu uğur tək ölkəmiz deyil, regiondakı digər dövlətlər üçün də yeni mərhələ kimi qiymətləndirilməlidir. Məhz Azərbaycanın tarixi qələbəsi sayəsində region dövlətləri daha səmərəli, eyni zamanda, qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına imkan verən zəmin yaradıb. Heç şübhə yoxdur ki, region ölkələrinin bu imkanları dəyərləndirmələri onların iqtisadi inkişaflarına yeni təkan verəcək. Göründüyü kimi, Azərbaycanın bu misilsiz uğuru SSRİ dağılandan bəri münaqişələr ocağına çevrilmiş Cənubi Qafqazdakı mənzərəni kökündən dəyişə bilər.

Aqil Ələsgər daha sonra dedi: "Çox əlamətdar haldır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev işğaldan azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində bütün zəruri addımları ataraq, dövlətin geniş potensialını bu işlərə cəlb etməklə, məcburi köçkünlərin həmin bölgələrə qayıdışını gerçəkləşdirmək siyasətini qətiyyət və ardıcıllıqla davam etdirir. Bu mənada xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, dövlətimizin başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva müharibənin yekunlaşdığı 2020-ci il noyabrın 10-dan sonra işğaldan azad olunmuş bölgələrimizə müntəzəm səfərlər edərək, aparılan bərpa-quruculuq işləri ilə birbaşa tanış olur, orada dislokasiya olunmuş hərbçilərimizlə görüşərək, onlarda ruh yüksəkliyi yaradır və ölkə rəhbəri verdiyi qəti mesajlarla dünya birliyinin yeni reallığı qəbul etməsinin alternativsizliyini diqqətə çatdırır".

Gəncləri Maarifləndirmə İctimai Birliyi sədrinin sözlərinə görə, Vətən müharibəsində aparılan hərbi əməliyyatlarda ilk böyük uğurlarımız oktyabrın ilk ongünlüyünə təsadüf edir. O cümlədən, Hadrutun azad edilməsi də məhz o zaman kəsiminə - oktyabrın 9-na düşür. Prezident İlham Əliyevin həmin tarixdə Hadruta səfər etməsi isə Azərbaycanın böyük qələbəsinin doğurduğu nəticələrin bir də heç vaxt dəyişməyəcəyini bütün dünyaya nümayiş etdirir. Dövlətimizin başçısının Hadrutda infrastrukturun bərpa işləri ilə tanış olması və bu çərçivədə bəzi obyektlərin təməlini şəxsən qoyması ermənilərin dağıdıcı xisləti ilə müqayisədə xalqımızın quruculuğa necə önəm verdiyini təsdiqləyir.

Aqil Ələsgər söhbətinin sonunda bildirdi ki, Prezident İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə regionda yaranmış yeni reallığı dəyişmək istəyənlərə ölkəmizin qəti mövqeyini bir daha bəyan etdi. Ölkə rəhbəri Hadrutun azad edilməsi haqda danışaraq vurğuladı ki, bu əməliyyat Azərbaycan Ordusunun gücünü həm ermənilərə, həm də bütün dünyaya göstərdi.

Azərbaycan Prezidentinin qeyd etdiyi mühüm detallar sırasında ermənilərin bu onilliklər ərzində Hadrut və Xocavəndin başqa yaşayış məntəqələrində heç bir iş görmədiklərini vurğulaması təsadüfi deyil. Doğrudan da, ermənilər bizim o əraziləri işğal etsələr də, bir gün həmin torpaqlardan çıxmaq məcburiyyətində qalacaqlarını yaxşı bilirdilər. Ona görə də, işğal etdikləri ərazilərdə infrastrukturu dağıdır, istifadəyə yararlı bütün növ tikinti materiallarını Ermənistana və başqa ölkələrə daşıyıb satırdılar. Hazırda sürətlə aparılan bərpa-quruculuq işləri ən bariz şəkildə onu göstərir ki, o ərazilər bizə - gerçək sahiblərinə məxsusdur və oralarda məhz biz qurub-yarada bilərik.

***V.BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 12 oktyabr.- S.10.